# ADNSU ilə İspaniya universitetləri arasında əməkdaşlıq genişlənir



**Aprelin 11-də Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) İspaniya Krallığının ölkəmizdəki səfirliyi, Təhsilin Beynəlxalqlaşdırılması üzrə İspan Xidməti (SEPIE) və Jaen Universitetinin nümayəndə heyəti ilə görüş keçirilib.**

ADNSU-nun rektoru, dosent Rüfət Əzizov universitetin tarixi, tədris olunan ixtisaslar, beynəlxalq əməkdaşlıq əlaqələri, eləcə də ikili diplom proqramları haqqında qonaqlara ətraflı məlumat verib. İspaniya universitetləri ilə potensial akademik əməkdaşlığın vacibliyinə toxunan rektor birgə elmi-tədqiqat layihələrinin, tələbə, müəllim mübadiləsi və mobillik proqramlarının, həmçinin akademik heyət üçün bacarıqların artırılmasında maraqlı olduğunu deyib.

ADNSU-ya səfərdən məmnunluqlarını bildirən qonaqlar Azərbaycan və İspaniya təhsil nazirlikləri arasında nəzərdə tutulan ikitərəfli memorandumdan, potensial akademik əməkdaşlığın araşdırılmasından və görülə biləcək işlərdən söz açıblar.

Görüşdə eyni zamanda, gələcək mübadilə proqramları üçün viza prosedurlarının sadələşdirilməsi və sürətləndirilməsi üçün səfirlik tərəfindən dəstəyin göstəriləcəyi vurğulanıb və birgə uzunmüddətli elmi əlaqələrin və tədqiqatyönümlü layihələrin işlənməsinin əhəmiyyətindən danışılıb.

Sonda qonaqlar ADNSU-nun Tarix muzeyində qorunub saxlanılan neft tarixinə və universitetə aid eksponatlarla tanış olublar.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**